


# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 164 (24.051)

*31 avqust 2022-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvanda Türkiyənin Zəfər bayramı qeyd edilib

Avqustun 30-da Türkiyə Respublikasının Zəfər bayramı və Türkiyə Silahlı Qüvvələri Günü münasibətilə Türkiyənin Naxçıvandakı Baş Konsulluğunun təşkilatçılığı ilə konsulluğun iqamətgahında tədbir keçirilib. Əvvəlcə Azərbaycan və Türkiyə respublikalarının ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, hər iki ölkənin Dövlət Himni səsləndirilib.

Tədbirdə Türkiyənin Naxçıvandakı Baş konsulu Məhmət Emin Kiraz qonaqları salamlayıb, bayramı birgə qeyd etməkdən məmnunluğunu bildirib, Türkiyə Respublikasının Prezidenti Rəcəb Təyyib Ərdoğanın Zəfər bayramı və Türkiyənin Silahlı Qüvvələr Günü münasibətilə Türkiyənin xarici ölkələrdəki diplomatik nümayəndəliklərinə göndərdiyi təbrik məktubunu oxuyub. Baş konsul çıxışında Zəfər bayramının 100-cü ildönümündə qardaş Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı şanlı zəfəri də qeyd etməkdən şad olduqlarını diqqətə çatdırıb. Qeyd edib ki, rəşadətli Azərbaycan Ordusu əzm və cəsarəti ilə tarixə qızıl hərflərlə yazılan bir zəfər qazanıb və işğalı sonlandıraraq şəhər və kəndləri bir-bir azad edib. Ötən həftə Laçın şəhəri ilə Zabux və Sus kəndlərinin nəzarətə götürülməsi münasibətilə təbriklərini çatdıran Məhmət Emin Kiraz Türkiyə Cümhuriyyətinin qurucusu qazi



Mustafa Kamal Atatürkün *"Azərbaycanın kədəri bizim kədərimiz, sevinci bizim sevincimizdir"* ifadəsini səsləndirib, Azərbaycan Ordusunun Ali Baş Komandanı başda olmaqla bu qələbə sevincini yaşadan əsgər və zabitlərə minnətdarlığını bildirib, qazilərə uzun ömür və cansağlığı arzulayıb, şəhidlərə Allahdan rəhmət diləyib.

Türkiyənin Naxçıvandakı Baş konsulu bildirib ki, bu gün böyük zəfərin 100-cü ilinə qovuşduq, gələn il isə cümhuriyyətimizin 100-cü ildönümünü qeyd edəcəyik. Zəferimizin və cümhuriyyətimizin ildönümlərinin yüzillikər boyu qeyd olunacağına əminik. Əminik ki, qardaş Azərbaycanın Böyük Zəfəri də yüz illər boyu qeyd ediləcək. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dediyi kimi ***"Azərbaycanın dövlət müstəqilliyi əbədidir, sarsılmazdır, dönməzdir"***.

Vurğulanıb ki, gücünü ortaq tarix, mədəniyyət və dilimizdən alan Azərbaycan-Türkiyə münasibətləri bütün istiqamətlərdə olduğu kimi, hərbi sahədə də inkişaf etməkdədir. Bölgədə daimi sülhün və sabitliyin təminatı olan qardaşlığın və işbirliyinin 2021-ci ildə imzalanan "Şuşa Bəyannaməsi"ndə qeyd olunan strateji müttəfiqlik istiqamətində hər sahədə güclənməyə davam edəcəyinə və dövlətlərimizin müstəqilliyi kimi əbədi olacağına heç bir şübhə yoxdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin birinci müavini Azər Zeynalov Türkiyə xalqının milli istiqlal tarixinin şanlı səhifəsi olan Zəfər bayramının 100 illiyi və Türkiyə Silahlı Qüvvələri Günü münasibətilə tədbir iştirakçılarını və qardaş Türkiyə xalqını təbrik edib. Bildirib ki, bu gün Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. İkitərəfli əlaqələrimizin inkişafında Naxçıvan Muxtar Respublikasının da mühüm rolu vardır. Xüsusilə



iqtisadi, ticarət, təhsil, səhiyyə, mədəniyyət sahələrində və ordu quruculuğunda əməkdaşlıq uğurla davam etdirilir.

Ali Məclis Sədrinin birinci müavini Zəfər bayramının 100-cü ildönümü və Türkiyə Silahlı Qüvvələri Günü münasibətilə bir daha təbriklərini çatdırıb, Türkiyə dövlətinə və xalqına daha böyük zəfərlər arzulayıb, çıxışını Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun fikirləri ilə tamamlayıb: ***"Türkiyə və Azərbaycan xalqlarının tarixi birliyi və sarsılmaz dostluğu bizim ən böyük sərvətimizdir. Belə bir möhkəm təməl üzərində qurulmuş münasibətlərimiz nümunə gücündədir. Bu əlaqələr bundan sonra da nümunə gücündə olacaq və daha da inkişaf edəcəkdir".***

Sonra Türkiyə Respublikasının Milli Müdafiə Nazirliyi tərəfindən hazırlanan Türkiyənin şanlı hərb tarixindən bəhs edən videoçarx nümayiş olunub, Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi, Naxçıvan Dövlət Universitetinin baş müəllimi Zemfira Babayevanın pianoda ifaları dinlənilib.

**Nail ƏSGƏROV**

## "Gəmiqaya təsvirləri ibtidai mədəniyyətimizin nümunəsi kimi" mövzusunda tədbir



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin təşkilatçılığı və AMEA Naxçıvan Bölməsi əməkdaşının, M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının əməkdaşlarının iştirakı ilə "Gəmiqaya təsvirləri ibtidai mədəniyyətimizin nümunəsi kimi" mövzusunda tədbir keçirilmişdir.

Tədbirdə çıxış edən Naxçıvanşünaslıq Mərkəzinin elmi katibi Nihad Tarverdiyev qeyd etmişdir ki, xalqımızın tarixi etnoqrafiyası və arxeologiyası üçün mühüm əhəmiyyətə malik olan, bəşər tarixinin ilkin təkamül çağlarından xəbər verən Gəmiqaya abidəsi qədim insanların dini, ideoloji, mifoloji, siyasi görüşlərini əks etdirən qayaüstü rəsmlər toplusudur. Süjet və kompozisiyası ilə fərqlənən bu rəsmlərin mövzusu əcdadlarımızın inancına və əmək fəaliyyətinə həsr olunub. Ona görə də xalqımızın həyat tərzi, qədim adət-ənənələri ilə əlaqədar yaranmış Gəmiqaya rəsmləri qiymətli tarixi və təsviri sənət nümunələri kimi tariximizin və mədəniyyətimizin ilkin inkişaf mərhələlərini xronoloji ardıcıllıqla izləməyə və öyrənməyə imkan verir.

Qeyd olunmuşdur ki, xalqımızın tarixi keçmişinin öyrənilməsi baxımından Gəmiqayanın çox əhəmiyyətli abidə olduğunu vurğulayan ümummilli liderimiz Heydər Əliyev deyib: ***"Naxçıvanın gözəl təbii abidələri var. Gəmiqaya dünyada məşhur bir yerdir... O, bizim böyük sərvətimizdir. Orada insanın qoyduğu izlər var. Bu, Azərbaycanın, onun ayrılmaz hissəsi olan Naxçıvanın tarixidir. Bunlarla məşğul olmaq lazımdır".***

Tədbirdə AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun, Antik və orta əsrlər arxeologiyası şöbəsinin müdiri Toğrul Xəlilov çıxış edərək bildirmişdir ki, Naxçıvan Muxtar Respublikasında tarix və mədəniyyət abidələrinin qorunması və bərpası istiqamətində ardıcıl tədbirlər görülür. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2001-ci il 26 aprel tarixdə imzaladığı "Ordubad rayonundakı Gəmiqaya abidəsinin tədqiq edilməsi haqqında" Sərəncamından sonra Gəmiqaya rəsmləri elmi əsaslarla öyrənilib, bu mövzuda onlarla elmi məqalə və kitablar yazılıb, "Gəmiqaya" Tarix-Bədii Qoruğu yaradılıb. 2005-ci ildə Gəmiqaya abidəsinə beynəlxalq ekspedisiya təşkil edilib, Gəmiqaya ətrafındakı arxeoloji abidələrdə tədqiqatlar aparılaraq etnoqrafik, folklor və onomastik materiallar toplanıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun "Tədbirlər Planı"na əsasən 2016-cı ildə "Gəmiqaya" Tarix-Bədii Qoruğunda və ona bitişik ərazilərdəki daşüstü təsvirləri ilə bağlı tədqiqat işləri aparılmışdır. Gəmiqaya rəsmləri Azərbaycanın qədim tarixinin, maddi və mənəvi mədəniyyətinin, incəsənətinin, eyni zamanda xalqımızın etnogenez tarixinin öyrənilməsi üçün olduqca zəngin, dəyərli mənbələrdir.

Sonda tədbir iştirakçılarına mərkəzin akt zalında yaradılan kitab sərgiləri haqqında məlumat verilmişdir.

**Xəbərlər şöbəsi**

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamı ilə təsdiq edilmiş "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası nəticəsində muxtar respublikada sosial qayğıya

## Özünüməşğulluq proqramına cəlb edilmiş sakinlərlə görüş



ehtiyacı olan şəxslər aktiv əməyə cəlb edilir, onların məşğulluqlarının təmin olunması istiqamətində ardıcıl tədbirlər görülür.

Artıq bir neçə ildir, icra olunan özünüməşğulluq proqramı bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və müvafiq qurumlar tərəfindən özünüməşğulluq fəaliyyətinin təşkilinə paralel olaraq regionlarda verilən aktivlərdən səmərəli və düzgün istifadənin təmin edilməsi məqsədilə maarifləndirmə tədbirlərinin icrası da davam etdirilir.

Bu tədbirlərin davamı olaraq Kəngərli rayonunda Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi və Daxili İşlər nazirlikləri, Dövlət Baytarlıq Xidməti, Dövlət Baş Sığorta Agentliyinin və yerli icra hakimiyyəti əməkdaşlarının, həmçinin Naxçıvan Muxtar Respublikası Sahibkarlığın İnkişafı Fondunun nümayəndəsinin iştirakı ilə özünüməşğulluq proqramına cəlb edilmiş yerli sakinlərlə görüş keçirilib. Görüşdə aktivlərdən təyinatına uyğun istifadə edilməsi, xəstəliklərə qarşı peyvəndləmə tədbirlərinin aparılması, sığorta obyekti ilə bağlı itkilərin və ya zərərlərin yaranmasına səbəb ola biləcək hadisələr zamanı sığortaçının üzərinə götürdüyü öhdəliklər və aktivlərdən qanunsuz istifadə hallarının yaratdığı hüquqi məsuliyyətə dair maarifləndirmə işi aparılıb, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

Sakinlər göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***



## Rabitə xətt təsərrüfatında yenilənmə işləri aparılır

Culfa rayonunun ucqar kəndlərində aparılan genişmiqyaslı abadlıq-quruculuq tədbirləri çərçivəsində müasir rabitə infrastrukturu yaradılır, yeni avadanlıqlar quraşdırılmaqla əhalinin dayanıqlı rabitə, yüksəksürətli internet xidmətləri ilə təmin olunması istiqamətində aparılan tədbirlər davam etdirilir. Həmçinin istismar müddəti ərzində rabitə xətt və abunə qurğularında yaranmış nazasılıqların aradan qaldırılması istiqamətində də operativ işlər görülür. Belə tədbirlər Əlincə kəndini də əhatə edib. Sakinlərə göstərilən rabitə xidmətlərinin keyfiyyətinin artırılması, rabitə xətlərinin texniki normalara uyğunlaşdırılması və yeni sabit telefon çəkilişlərinin aparılması məqsədilə müvafiq tədbirlər görülməkdədir. Bu məqsədlə yeni dəmir dirəklər basdırılır, rabitə xətləri texniki normalara uyğun vəziyyətə gətirilir, 1500 metrə yaxın məsafədə müxtəliftutumlu kabellər çəkilir, yararsız kabellər yenilənir, rabitə xətlərində olan nasazlıqlar aşkar edilərək bərpa edilir və digər zəruri işlər görülür.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

Dövlət proqramı icra olunur

## Muxtar respublikada sanitar-epidemioloji sabitlik təmin edilib

***Naxçıvan Muxtar Respublikasında insan amilinə verilən dəyərin parlaq nümunələrindən biri əhalinin sağlamlığının qorunması istiqamətində həyata keçirilən tədbirlərin davamlı xarakter almasıdır. Muxtar respublikada yeni tikilən və ya əsaslı surətdə təmir olunan səhiyyə müəssisələrinin sayının ildən-ilə artması, hətta ən ucqar kəndlərdə də müasir tələblərə cavab verən həkim ambulatoriyalarının, feldşer-mama məntəqələrinin istifadəyə verilməsi, qeyd edilən müəssisələrin lazımi avadanlıqlarla təchiz olunması deyilənlərin əyani sübutudur.***

Əhalinin sağlamlığının qorunmasında gigiyena və epidemiologiya sahəsində görülən işlərin də tərkib hissəsi kimi mühüm əhəmiyyəti daşıyır. Son illərdə Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzinin, eləcə də onun yerli qurumlarının maddi-texniki bazasının gücləndirilməsi və həmin qurumlarda müasir iş şəraitinin yaradılması istiqamətində həyata keçirilən tədbirlər Naxçıvanda bu sahənin inkişafının xüsusi diqqətdə saxlanıldığını deməyə əsas verir. Görülən işlərin nəticəsidir ki, ötən müddətdə muxtar respublikada əhaliyə göstərilən tibbi xidmətin keyfiyyəti daha da yüksəldilmiş və sanitar-epidemioloji sabitlik təmin olunmuşdur. Bu işlərin davamlılığını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2022-ci il 15 fevral tarixli Sərəncamı ilə “Naxçıvan Muxtar Respublikasında gigiyena və epidemiologiya sahəsində fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı 2022-2025-ci illər üzrə Dövlət Proqramı” təsdiq edilmiş, fevralın 18-də Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzində müvafiq Dövlət proqramının təqdimatı keçirilmişdir.

Həmin dövrdən etibarən proqramda nəzərdə tutulan tapşırıqların icrasına başlanılmış və fevral-iyun aylarında bu istiqamətdə bir sıra işlər görülmüşdür. Proqramın icrası çərçivəsində həyata keçirilən profilaktik tədbirlər muxtar respublika əhalisinin sanitar-epidemioloji salamatlığının təmin olunmasına yönəlmişdir. Belə ki, bu dövrdə 14 xəstəxana, 32 kənd həkim ambulatoriyası, 18 feldşer-mama məntəqəsi, 32 əczaxana, 28 bərbərxana və 55 gözəllik salonunda sanitar-epidemioloji vəziyyətlə bağlı monitorinqlər aparılmış, aşkar edilən nöqsanlarla əlaqədar qanunauyğun tədbirlər görülmüşdür. Həmçinin vətəndaşlara pandemiya ilə mübarizə məqsədilə 250 min 176 doza peyvənd vurulmuş, Gigiyena və Epidemiologiya Mərkəzinin Xüsusi təhlükəli infeksiyalar şöbəsi tərəfindən 3715 laboratoriya analizi aparılmışdır. Əlavə olaraq idarəolunan yoluxucu xəstəliklərin profilaktikası məqsədilə Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən tövsiyə olunan 11 xəstəliyə qarşı vaksinasiya tədbirləri həyata keçirilmiş, o cümlədən 14 tibb müəssisəsində çalışan 1976 tibb işçisinə hepatit B virusuna qarşı peyvənd vurulmuşdur.





Dövlət proqramında təhsil müəssisələrində sanitar-gigiyenik vəziyyətin nəzarətdə saxlanılması, uşaqlar arasında qurd invaziyalarının və vərəm xəstəliyinin profilaktikasına nəzarət olunması ilə bağlı tapşırıqların nəzərdə tutulması muxtar respublikada uşaqların yüksək dövlət qayğısı ilə əhatə edilməsindən xəbər verir. Bu istiqamətdə fevral-iyun aylarında vərəm xəstəliyinin profilaktikası məqsədilə 17 min 794 məktəblidə tuberkulin sınağı, 3403 məktəblidə isə ağciyərlərin flüoroqrafik müayinəsi həyata keçirilmişdir. Həmçinin qurd invaziyasına qarşı 1946 məktəblidə müayinə aparılmış, xəstəliyin əlamətlərinin aşkarlandığı məktəblilər dərman preparatları ilə təmin olunmuşdur. Proqramın icrası çərçivəsində həyata keçirilən müayinələr uşaqlar arasında xəstəliklərin erkən müəyyən olunması və vaxtında müalicə tədbirlərinin həyata keçirilməsinə şərait yaratmışdır.

Əhalinin sağlamlığının qorunması və möhkəmləndirilməsi, eləcə də cəmiyyətdə sağlam həyat tərzinin formalaşdırılması baxımından sanitariya qaydalarına və gigiyena normativlərinə əməl olunması mühüm əhəmiyyət kəsb edir. Bu məqsədlə görülən işlər həmin qayda və normativlərə riayət edilməsi sahəsində pozuntuların qarşısını almağa, nəticə etibarilə, insan sağlamlığının qorunmasına şərait yaradır. Dövlət proqramının icrası istiqamətində fevral-iyun aylarında 11 tikinti obyektində əmək gigiyenası qaydalarının monitorinqi aparılmış, Gigiyena və Epidemiologiya Mərkəzinin Toksikoloji laboratoriyasında müxtəlif istehsal müəssisələri tərəfindən istehsal olunan 25 qeyri-ərzaq nümunəsində 77, eləcə də 37 ərzaq nümunəsində 145 müayinə aparılaraq müvafiq sertifikat verilmişdir. Həmçinin bu dövrdə 7 məktəbəqədər və 18 ictimai iaşə müəssisəsindən götürülən 36 yemək nümunəsinin qida dəyəri yoxlanılmışdır. Eyni zamanda qida məhsullarının istehsalı, daşınması, saxlanması və satışı zamanı tibbi-bioloji tələblərə, sanitar-gigiyena norma və qaydalarına nəzarət olunması da diqqətdə saxlanılmış, bu məqsədlə bir sıra təsərrüfat subyektlərinə baxış keçirilmiş, aşkarlanmış nöqsanların aradan qaldırılması təmin edilmişdir.



İnsan sağlamlığının ətraf mühit amillərinin mənfi təsirindən qorunması sanitar-epidemioloji salamatlığın təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edən digər tədbirlərdəndir. Dövlət proqramında bu istiqamətdə nəzərdə tutulan tədbirlərin icrası da fevral-iyun aylarında diqqətdə saxlanılmış, açıq və qapalı içməli su hövzələrində 30 su nümunəsi üzərində 420 analiz aparılmışdır. Həmçinin bu dövrdə muxtar respublika ərazisində 17 radiasiya ölçməsi həyata keçirilmiş və nəticələrin normativə uyğun olduğu müəyyənləşmişdir.

Proqramın icrasına uyğun olaraq yoluxucu xəstəliklərin yayılmasının qarşısını almaq məqsədilə muxtar respublikanın bütün yaşayış məntəqələrində və əhali sıxlığı müşahidə olunan yerlərdə qrafikə uyğun şəkildə dezinfeksiya işləri həyata keçirilmişdir. Bu istiqamətdə qeyd edilən dövrdə Fövqəladə Hallar Nazirliyi tərəfindən 15 xüsusi təyinatlı avtomobil və 79 əməkdaş cəlb olunmaqla, 12 milyon 200 min kvadratmetr sahədə xüsusi məhlullarla dezinfeksiya işi aparılmışdır. Görülən işlər epidemioloji vəziyyətin sabitliyinin qorunmasına şərait yaratmışdır.

Gigiyena və epidemiologiya sahəsində davamlı inkişafı təmin etməyin digər mühüm vasitəsi isə bu istiqamətdə ixtisaslı kadr potensialının formalaşdırılmasıdır. Dövlət proqramında da ali təhsil müəssisələrində müvafiq ixtisaslarda təhsil alan tələbələrin praktik fəaliyyətə cəlb olunması ilə bağlı tapşırıq nəzərdə tutulmuşdur. Tapşırığın icrası məqsədilə Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsində təhsil alan 32 tələbə üçün Gigiyena və Epidemiologiya Mərkəzinin müvafiq laboratoriyalarında praktik dərslərin keçilməsi təmin edilmişdir. Həmçinin mərkəzdə və onun yerli qurumlarında 46 tələbənin yay aylarında təcrübə keçməsi üçün şərait yaradılmışdır.

Dövlət proqramının icrası çərçivəsində gigiyena və epidemiologiya tədbirlərinin əhatə dairəsinin genişləndirilməsi muxtar respublikada bundan sonra da sanitar-epidemioloji sabitliyin qorunub saxlanılmasına imkan verəcəkdir.

**“Şərq qapısı”**

## Heydər Əliyev adına Hərbi Lisey müəllimlərinin sertifikatlaşdırılmasının müsahibə mərhələsi keçirilib



Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 19 iyun 2020-ci il tarixli 110 nömrəli Qərarı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasının dövlət ümumi təhsil müəssisələrində işləyən təhsilverənlərin sertifikatlaşdırma Qaydası”na uyğun olaraq muxtar respublikada müəllimlər mərhələli şəkildə sertifikasiyaya cəlb olunurlar. Ümumi təhsil müəssisələrində işləyən təhsilverənlərin sertifikatlaşdırılması 2 mərhələdə – test və müsahibə mərhələsində videoçəkiliş təmin edilməklə aparılır.

Avqustun 23-də Heydər Əliyev adına Hərbi Liseyin müəllimlərinin sertifikatlaşdırılmasının I mərhələsi – test mərhələsi keçirilib. Test mərhələsində liseyin müəllimlərindən 34-ü tədris etdiyi fənn üzrə ümumtəhsil proqramlarına, tədris və təlim metodikasına aid müvafiq keçid balını toplayaraq təhsilverən sertifikatlaşdırmanın müsahibə mərhələsində iştirak hüququ qazanıb.

Avqustun 30-da isə həmin müəllimlərin Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin İmtahan Mərkəzində müsahibə mərhələsi keçirilib. Müsahibə mərhələsini Təhsil Nazirliyinin Sertifikatlaşdırma Şurası aparıb. Bu mərhələdə iştirak edən hər bir təhsilverənin qiymətləndirilməsi proqram üzrə mövzunu təqdimetmə, təhsilalanları qiymətləndirmə, özünü təqdimetmə, pedaqoji prosesi təşkiletmə və ünsiyyət bacarığı kimi meyarlar əsasında maksimum 40 balla aparılır.

Qeyd edək ki, üzrlü səbəblərdən sertifikatlaşdırmada iştirak etməyən və ya sertifikatlaşdırmadan keçməyən şəxslər 1 il müddətində iş yeri saxlanılmaqla təkrar sertifikatlaşdırmada iştirak etmək hüququna malikdirlər. Qaydaya əsasən təkrar sertifikatlaşdırmada iştirak etməyən şəxslər və təkrar sertifikatlaşdırmada müəyyən olunmuş keçid balını toplaya bilməyən təhsilverənlər sertifikatlaşdırmadan keçməmiş hesab olunurlar. Sertifikatlaşdırmadan keçmiş təhsilverənlər 5 il müddətində təhsil müəssisələrində öz ixtisasları üzrə pedaqoji fəaliyyətlə məşğul olmaq hüququ əldə edir və sertifikatlaşdırmadan üçüncü dəfə keçəndən sonra təhsilverənlər təhsil müəssisələrində öz ixtisasları üzrə pedaqoji fəaliyyətlə çalışmanın yaş həddinə qədər məşğul olmaq hüququ əldə edirlər.

Sertifikatlaşdırmanın nəticələri yeni tədris ilindən təhsilverənlərin karyera inkişafında və əməyin stimullaşdırılmasında nəzərə alınacaq. Belə ki, ölkə başçısı avqustun 18-də dövlət ümumi təhsil müəssisələrinin rəhbər işçilərinin və həmin təhsil müəssisələrinin (ümumi təhsil üzrə təhsilverənlərə münasibətdə digər dövlət təhsil müəssisələrinin) təhsilverənlərinin vəzifə maaşlarına aylıq əlavələrin müəyyən edilməsi haqqında Fərman imzalayıb. Fərmana uyğun olaraq sertifikatlaşdırmanın test mərhələsində 50 baldan yuxarı bal toplamış müəllimlərin ümumi təhsil müəssisələrində tədris edilən dərs saatına görə 35, keçid balını toplamış digər təhsilverənlərə isə 10 faiz əlavələr nəzərdə tutulub. Yeni tədris ilindən ödənilməsi nəzərdə tutulan əlavələr müəllimlərin maddi rifahının daha da yaxşılaşdırılmasına, bu isə, öz növbəsində, tədrisin səviyyəsinin yüksəldilməsinə öz töhfəsini verəcək.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## Birgə taktiki təlim

*Naxçıvan Qarnizonu Qoşunlarının 2022-ci tədris ilinə uzlaşma planına əsasən “Dövlət sərhədinin pozulması hallarının qarşısının alınması üzrə sərhəd axtarışının təşkili” mövzusunda birgə taktiki təlim keçirilib.*



Təlimin ssenarisinə əsasən sərhəd pozucuları dövlət sərhədini pozaraq Naxçıvan Muxtar Respublikasının ərazisinə keçməyə cəhd edirlər. Sərhəd naryadından daxil olmuş siqnala əsasən sərhəd bölmələrinin şəxsi heyəti “Silaha” komandası ilə qaldırılır. “Həyəcan qrupu” hadisə baş vermiş əraziyə, “Hərbi pərdələyici dəstə” sərhəd naryadları isə dövlət sərhədinin pozulduğu istiqamətdə təyin olunmuş hüdudlar boyu ərazinin qapadılması üçün hərəkət edirlər. Dövlət sərhədinin pozulması əlamətləri aşkar edildikdən sonra sərhədin mühafizəsi gücləndirilməklə aidiyyəti qurumların müvafiq bölmələri xəbərdar edilir. Sərhəd komendantlığının mobil qrupları və sərhəd zastavalarından cəlb olunmuş axtarış qrupları tərəfindən dövlət sərhədinin pozulduğu istiqamətdə axtarış tədbirləri həyata keçirilir.





Əməliyyat-axtarış tədbirlərinin daha effektli həyata keçirilməsi üçün əməliyyat rayonunda birgə qərargah yaradılır. Axtarış rayonunda sərhədpozucuların dərinliyə sızmasına imkan verməmək məqsədilə “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının bağlama qrupları ilə birgə Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlı bölmələrindən və Daxili Qoşunların “Naxçıvan” Əlahiddə Əməliyyat Briqadasının xüsusi təyinatlı dəstəsindən ayrılmış qruplar da cəlb edilməklə təyin olunmuş hüdudlar boyu ərazi bağlanır. Birgə fəaliyyət zamanı təcrid edilmiş ərazilərdəki yaşayış məntəqələrində naməlum şəxslər haqqında məlumatların toplanılması məqsədilə əraziyə yaxın yollarda reydlər keçirilir, əməliyyat rayonunun giriş-çıxış yollarında nəzarət məntəqəsi xidməti təşkil olunur.

Aparılmış uğurlu axtarış tədbirləri nəticəsində aşkar olunmuş sərhədpozucular mühasirəyə alınaraq yaxalanır və sərhəd axtarışı ərazisində fəaliyyət dayandırılaraq rejimə qoyulmuş məhdudiyyətlər aradan qaldırılır.

Təlimin yekununda Naxçıvan Əlahiddə Sərhəd Diviziyası komandirinin birinci müavini-qərargah rəisi, polkovnik Muxtar Həmzəyev birgə fəaliyyət nəticəsində təlimdə qarşıya qoyulmuş məqsədlərə nail olunduğunu bildirib.

**Kənan CƏLİLOV**

***Bu yaxınlarda “Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyətinin əməkdaşı, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Faiq Abbasoğlunun “Ömrün tale yükü” adlı kitabı oxucu auditoriyasına ünvanlanıb. “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyində nəfis şəkildə çap olunan bu kitab bir çox məziyyətləri ilə diqqət çəkir.***

*Yeni nəşrlər*

# Ömrün tale yükü



Ömrünün 65-ci baharında və Naxçıvan Dövlət Radiosunun 90 illiyində müəllifin oxucularla ilk görüşü olan bu kitabda rejissorun, əsasən, çəkilişində iştirak etdiyi, efir üçün ərsəyə gətirdiyi ədəbi-bədii, publisistik verilişlərdən bəhs olunub. Kitabda müəllifin 40 il ərzində hazırladığı verilişlərin, telefilmlərin, film-tamaşaların, telekompozisiyaların rejissor ssenariləri, bir neçə nəzəri rejissor qeydləri xronoloji ardıcıllıqla öz əksini tapıb. Qeyd edək ki, Faiq Abbasoğlu Azərbaycan televiziyasında işə başladığı dövrlərdə əsl yaradıcılıq məktəbi keçərək peşəkar rejissor kimi formalaşıb. Moskva Teleradio Təkmilləşdirmə İnstitutunda da qazandığı təcrübəni Naxçıvan televiziyasının efirində ilk tətbiq edən televiziya rejissoru da Faiq Abbasoğlu olub.

Azərbaycan televiziyasında ilk kövrək addımlarını atan F.Abbasoğlu V.Vampilovun “Metranpaj” komediyasına ekran həyatı verdikdən sonra daha çox tanınmağa başlayıb. Onun rus dilindən tərcümə edərək 1982-ci il aprelin 12-də efirə təqdim etdiyi bu komediya böyük uğur qazanıb.

Faiqin rejissorluq fəaliyyəti, əsasən, Naxçıvan televiziyası ilə bağlıdır. Ötən əsrin 80-90-cı illərində Naxçıvan televiziyasında hazırlanan müxtəlif janrlı verilişlərin, demək olar ki, böyük əksəriyyəti Faiqin peşəkar əməyinin bəhrəsidir. Televiziyaya gəldiyi ilk gündən onunla tanış olmuşam və elə o vaxtdan da əməkdaşlığa başlamışıq. Bu illər ərzində yazdığım çoxsaylı səhnəciklərə, ssenari müəllifi olduğum irihəcmli “Ayrılıq”, “Axtarış”, “Telesiqnal”, “Bunlar kiçik məsələlər deyil”, “Yeni il” və “Novruz” bayramı verilişlərinə quruluş verib, bir neçə televiziya filmi ərsəyə gətirib. Maraqlı bir cəhəti də qeyd edim ki, o, operator kimi də səhnəciklərimin əksəriyyətini kameranın yaddaşına köçürüb və onun operator işi həmişə uğurlu alınıb. Hazırladığı silsilə verilişlərin, tamaşaların musiqi və dekorasiya tərtibatını həmişə özü verib.

Kitabda Naxçıvan televiziyasında baş verən texniki yeniliklər detalları ilə təsvir olunub. 1932-ci il aprelin 1-də yaradılan Naxçıvan Radio Verilişləri Komitəsinin keçdiyi şərəfli yoldan bəhs edərkən müəllif yazır ki, ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbər seçilməsindən sonra bütün sahələrdə olduğu kimi, radio və televiziya da yeni inkişaf mərhələsinə qədəm qoyub. Ulu öndərimizin tapşırığı ilə qısa müddət ərzində Azərbaycan televiziyası verilişlərinin muxtar respublika ərazisində yayımlanması və yerli teleradionun qəbulu üçün 10-dan çox radio-televiziya xətti və yarımstansiyalar quraşdırılıb. Bununla da teleradionun muxtar respublikanın əksər bölgələrində yayımlanmasına nail olunub.

1985-ci il sentyabrın 25-i Naxçıvan televiziyası studiyanın yeni qurulmuş rəngli texniki avadanlıqları ilə Mömünə xatın türbəsinin dairəvi rəngli fotosu fonunda efirə çıxıb. Həmin illərdə hazırlanmış “Qüdrətli diyar”, “Müqəddəs nemət”, “Şərur yallıları” rəngli televiziya filmləri, “Karvan”, “Göy qurşağı”, “Ayrılıq”, “Axtarış” və digər ədəbi-bədii, publisistik verilişlər populyarlıq qazanıb.

1990-1993-cü illər kitabda Naxçıvan televiziyasının ən ağır və eyni zamanda yeni inkişaf mərhələsinə qədəm qoyduğu illər kimi təsvir olunub. Azərbaycan televiziyasının enerji bloku partladıldığından Naxçıvan teleradiosu yerli əhalinin yeganə informasiya vasitəsinə çevrilmişdi. Televiziya Naxçıvanda yaranan milli hərəkatı, Sədərək döyüşlərini, bütövlükdə, işıqlandırırdı. Bəzən isə hətta gecə saat 3-dən sonra fövqəladə xüsusi xəbərlər efirə ötürülürdü. Həmin dövrdə Azərbaycan televiziyasının peykə çıxışı olmadığından ölkədə baş verən hadisələrlə bağlı məlumatlar yalnız telefon və poçt vasitəsilə alınırdı. 1993-cü ildə isə Azərbaycan televiziyasının “Xəbərlər” buraxılışları ən tezi bir gün sonra əldə edilir və blokada şəraitində yaşayan Naxçıvan əhalisinə çatdırılırdı.

Ulu öndər Heydər Əliyevin Naxçıvana qayıdışı muxtar respublikanın ictimai-siyasi həyatında olduğu kimi, Naxçıvan televiziyasında da bir canlanma yaratdı. Onun sədrliyi ilə keçirilən ilk sessiyalarda Dövlət rəmzlərinin dəyişdirilməsi ilə bağlı qəbul edilən qərarlar, Ali Məclisin Sədri kimi apardığı sessiyalar Naxçıvan televiziyasının səyyar telekameraları ilə çəkilərək hər gün Naxçıvan əhalisinə təqdim olunurdu. Ulu öndərimiz Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçildikdən sonra televiziya yeni inkişaf mərhələsinə qədəm qoydu və onun yaradıcılıq imkanları daha da genişləndi.

Ali Məclisin Sədri 1991-1993-cü illərdə tez-tez televiziyaya gəlir, canlı çıxışlar, müraciətlər edir, bəzi məsələləri əhaliyə televiziya vasitəsilə çatdırırdı. Bəzən sərhəd rayonlarındakı vəziyyət və daxildə baş verən hadisələrlə əlaqədar olaraq efirdən xalqa səslənirdi. Bu dövrdə Azərbaycan telemekanında ilk dəfə olaraq Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan televiziyası üçün qardaş Türkiyə Respublikasından “BETEKAM” tipli telejurnalist komplekti alındı. 1992-ci ildə isə televiziyaya “PANASONİK-1000” markalı videokamera hədiyyə olundu. Bu kamera vasitəsilə Ali Məclis Sədrinin görüşləri, rayonlara səfəri və başqa tədbirlər lentə alındı.

Bu dövrdə Azərbaycan televiziyasının “Karvan” və “Gecə kanalı” proqramlarının bir neçə buraxılışında “Nəqşi-cahan” müstəqil kino-videostudiyasının rəhbəri və müəllifi kimi çıxış edən F.Abbasoğlu 1997-ci ildən başlayaraq hər il televiziyanın “Novruz” və “Yeni il” bayramları verilişlərinə quruluş verib. Hər bayram verilişinin də yaddaqalan anları olub. Faiqin ilk dəfə studiyadan kənarda “Təbriz” mehmanxanasında maraqlı aktyor ansamblının iştirakı ilə hazırladığı “Göydən düşən mələk” telenovellası uğurla nümayiş olunub.

Müstəqillik illərində Naxçıvan teleradiosu müstəqil kanalda yayımlanmağa başlayıb. Müxtəlif illərdə teleradionun maddi-texniki bazası xeyli gücləndirilib, teleradionun binası əsaslı yenidənqurmadan sonra istifadəyə verilib, müasir texniki avadanlıqlar quraşdırılıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun imzaladığı “Naxçıvan teleradiosunun maddi-texniki bazasının möhkəmləndirilməsi və yaradıcılıq işinin təkmilləşdirilməsi” ilə bağlı Tədbirlər Planının təsdiq edilməsi barədə 2018-ci il 6 fevral tarixli Sərəncamı teleradionun fəaliyyətini daha da genişləndirib, muxtar respublikada ilk dəfə olaraq “NUHÇIXAN” informasiya agentliyi yaradılıb. Bu gün dünyanın istənilən yerindən Naxçıvan teleradiosunu internet vasitəsilə izləmək mümkündür. Bu isə muxtar respublikanın tanıdılmasının, burada həyata keçirilən böyük quruculuq işlərinin, insanların yaşayış səviyyəsinin, qədim diyarın tarixi-mədəni irsi və milli dəyərlər haqqında məlumatların daha geniş tamaşaçı kütləsinə çatdırılmasına imkan verir.

Yeni texniki avadanlıqla təchiz olunmuş radio və telepavilyonlar, müasir rəqəmsal telekameralar, kompüter montaj otaqları yaradıcı heyətin ixtiyarına veriləndən sonra F.Abbasoğlu keçidlər, videoçarxlar, telekompozisiyaların hazırlanmasında yaxından iştirak edib. “Milli kino inciləri”, “Sənət yolu, sənətkar taleyi”, “Kinogülüş”, “Sənətlə ucalanlar” silsilə verilişləri yeni formatda efirə vəsiqə alıb. “Gülüş köşkü” satirik proqramı da bir neçə buraxılışı ilə tez bir zamanda tamaşaçı rəğbətini qazanıb. 2016-cı ildə şair-dramaturq Həsənəli Eyvazlının “Yasda toy əhvalatı” pyesinin motivləri əsasında ekranlaşdırdığı eyniadlı film-tamaşa, 2019-2020-ci illərdə “Naxçıvan dəmir yolları” və “Ulu çinar, xan çinar”, üçhissəli “Naxçıvan albomu” sənədli televiziya filmləri rejissor fəaliyyətində yeni səhifələr yazıb.

“Naxçıvan müstəqillik illərində” respublika üzrə keçirilən yaradıcılıq müsabiqəsinin qalibi kimi Fəxri diplom və mükafat alıb.

O dövrdə Naxçıvan televiziyası ilə sıx əməkdaşlıq edən hörmətli akademikimiz İsa Həbibbəyli Faiqin rejissor istedadını yüksək qiymətləndirərək yazırdı: “Faiq Musayev öz dəstxəti ilə Naxçıvan televiziyasına yenilik gətirdi. O, 80-ci illərdə Naxçıvan televiziyasında Mirzə Cəlilin həyat və yaradıcılığı, Naxçıvan ədəbi mühiti ilə bağlı kənar müəllif və aparıcı kimi hazırladığım silsilə verilişlərin əksəriyyətinə rejissorluq edib. İlk verilişlərdən onu duyumlu bir rejissor kimi tanımağa başladım. “Sehrli kreslo” televiziya tamaşası o illərdə böyük tamaşaçı marağı doğurdu və mənim onun gənc rejissor kimi gələcəkdə peşəkar rejissor olacağına şübhəm qalmadı. Sonralar onun ssenarilərim əsasında çəkdiyi filmlər, verilişlər və uğurlu film-tamaşaları bunu bir daha sübut etdi. Naxçıvan Dövlət Musiqili Dram Teatrında 2000-ci ildə oynanılmış məsləhətçi olduğum “Qurbanəli bəy” tamaşası da Faiqin teatr səhnəsində rejissor bacarığını bir daha üzə çıxartdı. Bu tamaşa ilə Faiq Musayev yaddaqalan səhnə tərtibatı, orijinal rejissor yozumları, maraqlı aktyor heyəti ilə müasir tamaşaçının marağına uyğun ideyaları ön mövqeyə çəkə bildi”.

İsa Həbibbəylinin haqqında söz açdığı “Sehrli kreslo” ifşa etmək üçün bir vasitədir. Kim bu kresloya əyləşirsə, özünə dönür, yəni onun üzündə maska yox olur. Ürəyi ilə dili həmahəng səslənir. Faiqin isə heç bir sehrli kresloya ehtiyacı yoxdur. Onun əməlləri həmişə ürəyinin hökmü ilə həmahəngdir, səmimidir. Bu səmimiyyət ömrün tale yüküdür.

“Ömrün tale yükü” həm də Naxçıvan radiosunun 90 illik tarixinə, televiziyasının 59 illik inkişaf yoluna konkret faktlar və fotoşəkillərlə güzgü tutan bir kitabdır. Onu teleradio tədqiqatçıları üçün müraciət edə biləcək ilk mənbə kimi də dəyərləndirmək olar.

*Faiq ömrün müdrik çağlarını yaşayır. Ürəyi sənətlə döyünür, yeni-yeni telelayihələrə imza atmaq istəyir. İşə can yandırmaq, yorulmaq bilmədən çalışmaq onun ən müsbət keyfiyyətlərindəndir. Bu gün də onun sənətə olan sonsuz məhəbbəti gənclər üçün bir nümunədir.*

**Hüseyn ƏSGƏROV**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

*Gəncliyimiz, gələcəyimiz*

# Uğurun sirri:
## motivasiya, məqsəd və düzgün metodla çalışmaq

*Təhsilə göstərilən dövlət qayğısı hesabına muxtar respublikamızın ümumtəhsil məktəblərini bitirən məzunlar bu il də ali məktəblərə keçirilən qəbul imtahanlarında yüksək bal toplayıblar. Onlar içərisində Kəngərli rayonunun məzunları da vardır. Gəlin onları yaxından tanıyaq...*



***Turac Mehdiyeva*** 2004-cü ildə anadan olub. Hazırda Kəngərli rayonunun Yurdçu kəndində yaşayır. O deyir: – Orta təhsilimi Yurdçu kənd tam orta məktəbində almışam. Məktəbdə oxuduğum müddətdə olimpiadalarda, bilik yarışlarında iştirak edib, finala qədər irəliləmişəm. 2021 və 2022-ci illərdə Kəngərli rayon komandasının tərkibində Naxçıvan üzrə “Xəmsə” milli intellektual oyununun qalibi olmuşam. IX sinfi fərqlənmə attestatı, XI sinfi “Qızıl” nişanla bitirmişəm. IV ixtisas qrupu üzrə qəbul imtahanında 674 bal toplamışam. Seçimim isə Naxçıvan Dövlət Universiteti oldu. Burada tibb sahəsi üzrə təhsil almağı hədəfləyirəm. Qəbul imtahanında əldə etdiyim yüksək nəticəyə görə ən başda dövlətimizə, valideynlərimə və müəllimlərimə minnətdaram. Məncə, uğur qazanmağın sirri çox çalışmaqdadır, həmçinin yönəldiyin sahəyə marağın və həvəsin olmalıdır. Məqsədim yaxşı həkim olmaq, tibb elminin inkişafına töhfə vermək, ölkəmizi beynəlxalq səviyyədə təmsil etməkdir.



***Əli Qasımov*** 2005-ci il fevralın 2-də Çalxanqala kəndində anadan olub. Orta təhsilini Çalxanqala kənd tam orta məktəbində alıb. Əli deyir: – Məktəbdə bir çox uğurlar qazanmışam. Buraya rayon olimpiada birinciliyim və məktəb üzrə bir çox birinciliklərim aiddir. Bununla yanaşı, idman sahəsində məktəb üzrə uğurlarım var. Bu il II ixtisas qrupu üzrə qəbul imtahanında 634 bal toplamışam. Seçimimi isə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının İqtisadiyyat ixtisası üzrə etmişəm. Məncə, hər bir gənc, ələlxüsus da ki, ali təhsil almağı qarşısına məqsəd qoymuş bir şagird həmişə xəyallarını, arzularını və əziyyətinin bəhrəsini alacağı günü düşünərək daha da həvəslənməli, qətiyyətlə və əzm göstərərək çox çalışmalıdır. Həmçinin idman, bədii əsərlər oxumaq kimi digər məşğuliyyətlərlə də özlərini daha da təkmilləşdirə bilər, çünki əziyyət çəkən hər kəs bəhrəsini görür.

Məramım öncə Vətən üçün xeyirli bir şəxsiyyət olmaq, arzu və xəyallarımı həyata keçirməkdir.



***Məftun Niftəliyev*** 2004-cü il fevralın 13-də Qıvraq qəsəbəsində anadan olub. O deyir ki, riyaziyyat, coğrafiya, tarix və fizika fənlərinə böyük marağı olub. XI sinifdə oxuyarkən muxtar respublika fənn olimpiadasında fizika fənni üzrə I yeri tutub. I ixtisas qrupu üzrə imtahan verərək 617 bal toplayıb. Seçimi Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin Kimya mühəndisliyi ixtisası olub: – Seçim zamanı sadəcə olaraq öz maraqlarımı və universitetdəki təhsil sistemini nəzərə aldım. Məncə, yüksək bal toplamaq üçün çox oxumaq yox, düzgün oxumaq lazımdır, necə deyərlər, keyfiyyətə daha çox diqqət yetirmək lazımdır. Gələcək hədəfim isə öz şəxsi işimi qurmaqdır.



***Məlahət Ələkbərli*** 2005-ci il iyulun 2-də Qıvraq qəsəbəsində anadan olub. Qıvraq qəsəbə tam orta məktəbini bitirib. Məlahət deyir: – Həmişə istəmişəm ki, çalışqan, intizamlı və nümunəvi şagird olum, yüksək nailiyyətlər əldə edim. Buna görə də çox çalışmışam və bunun nəticəsi olaraq VII sinifdə oxuyarkən keçirilən fənn olimpiadalarında ingilis dili fənnindən Kəngərli rayonu üzrə I, muxtar respublika üzrə isə II yerə layiq görülmüşəm. X sinifdə oxuyarkən isə keçirilən respublika fənn olimpiadasında fizika fənni üzrə III yeri tutaraq bürünc medalla təltif olunmuşam. Bu uğurları qazanmağımda müəllim və valideynlərimin böyük rolu olub. Ali məktəbə qəbul üçün imtahanlarda IV ixtisas qrupu üzrə 616 bal toplamışam. İxtisas seçimimdə həkimlik arzumu həyata keçirmək üçün tibb sahəsinə üstünlük vermişəm. Fikrimcə, əsas olan sistemli çalışmaqdır. Bununla hər bir şagird məqsədinə nail ola bilər.



***Rəvan Musayev*** 2004-cü il dekabrın 26-da Kəngərli rayonunun Şahtaxtı kəndində anadan olub. Qıvraq qəsəbə tam orta məktəbini bitirib. Rəvan bildirir ki, məktəbdə fəal şagird olub, olimpiadalarda və intellektual yarışlarda, sınaq imtahanlarında uğur əldə edib. “Xəmsə” intellektual oyununda muxtar respublika üzrə I yeri, coğrafiyadan pazl oyununda rayon üzrə I yeri tutub. Məktəbi fərqlənmə attestatı ilə bitirib, II ixtisas qrupu üzrə 609 bal toplayıb: – İstəyim ingilis dilində təhsil almaq olduğu üçün seçimimi Azərbaycan Dövlət İqtisad Universitetində Maliyyə ixtisası üzrə (tədrisi ingilis dilində) etmişəm. Yüksək bal toplamaq üçün bir şagirdə ən birinci, məsuliyyət lazımdır. Həvəsi itirməmək, ruhdan düşməmək, həmişə motivasiyalı olmaq, dərslərə ciddi önəm vermək vacibdir. Ən önəmlisi isə vaxtı düzgün bölməkdir. Vaxtında dərs oxuyub, kifayət qədər dincəlmək də əsasdır. Əsas məqsədim ixtisasımı yaxşı mənimsəyib, özümə yaxşı bir iş qurmaqdır.



***Emil Şəfizadə*** 2005-ci il sentyabrın 1-də Qarabağlar kəndində anadan olub. Qarabağlar kənd tam orta məktəbini uğurla başa vurub. Emil deyir: – Məktəbdə oxuyarkən respublika, eləcə də muxtar respublika fənn olimpiadalarında və müxtəlif bilik yarışmalarında iştirak edib, uğurlar qazanmışam. IX sinifdə oxuyarkən muxtar respublika fənn olimpiadasında riyaziyyat fənni üzrə II yerə layiq görülmüşəm. Respublika fənn olimpiadasında isə final mərhələsinədək yüksəlmişəm. IX sinfi fərqlənmə attestatı ilə bitirmişəm. XI sinifdə oxuyarkən muxtar respublika fənn olimpiadalarında iştirak edib, riyaziyyat fənni üzrə qalib olmuşam. Məktəbi “Qızıl” nişanla başa vurmuşam. Qəbul imtahanında IV ixtisas qrupu üzrə 607 bal toplamışam. Azərbaycan Tibb Universitetini seçmişəm. Gələcəkdə hansı ixtisasa yiyələnəcəyimdən asılı olmayaraq, Vətənimə, xalqıma layiqli vətəndaş olmağa çalışacağam.

*Biz də tələbə adını qazanacaq gənclərimizə gələcək təhsil həyatlarında uğurlar arzulayırıq.*

**Güntac ŞAHMƏMMƏDLİ**

## Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzi Naxçıvan Muxtar Respublikasının dövlət ümumi təhsil müəssisələrində vakant vəzifələrə işə qəbul üçün müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər 1 sentyabr-1 oktyabr 2022-ci il tarixlərdə Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin internet portalında *(www.dim.nmr.az)* "şəxsi kabinet" bölməsinə daxil olaraq elektron müraciət formasını doldurmaqla qeydiyyatdan keçməlidirlər.

Namizədlər test imtahanında iştirak üçün 100 manat məbləği "şəxsi kabinet" vasitəsilə bank kartları ilə ödəyə bilərlər. Digər halda həmin məbləğ Dövlət İmtahan Mərkəzinin "Naxçıvanbank" ASC-dəki bank hesabına (AZ50NAXB36015000024840000AZN) ödənməli və ödənişə dair qəbz həftənin iş günləri saat $09^{00}$-dan $12^{30}$-dək və $14^{00}$-dan $17^{30}$-dək Dövlət İmtahan Mərkəzinə təqdim edilməlidir.

Bununla yanaşı, namizədlər Dövlət İmtahan Mərkəzinin inzibati binasına gələrək zəruri sənədləri (şəxsiyyət vəsiqəsinin, 1 ədəd 3x4 ölçüdə fotoşəklin, diplomun (ali və ya orta ixtisas təhsili müəssisəsini bitirmə haqqında arayışın) və əmək kitabçasının (varsa) skan olunmuş surətlərini) təqdim etməklə qeydiyyatdan keçə bilərlər.

Namizəd bir neçə vakant vəzifənin tutulması üçün müraciət edə bilər.

Maraqlananlar Dövlət İmtahan Mərkəzinin (036) 545-65-71 nömrəli əlaqə telefonu və ya *dim@nmr.az* elektron poçt ünvanı vasitəsilə ətraflı məlumat əldə edə bilərlər.

| Vəzifə kodu | Təhsil müəssisəsi | Vəzifə | Vakant yerlərin sayı | Qeyd |
|---|---|---|---|---|
| | **Naxçıvan şəhəri üzrə:** | | | |
| 6900506 | Naxçıvan Şəhər Kimya-Biologiya Təmayüllü Lisey | Uşaq birliyi təşkilatının rəhbəri | 1 | |
| 6900505 | Naxçıvan Şəhər Kimya-Biologiya Təmayüllü Lisey | Psixoloq | 1 | |
| 6910343 | 3 nömrəli tam orta məktəb | Kitabxanaçı | 1 | * |
| 6910355 | 3 nömrəli tam orta məktəb | Laborant (kimya, biologiya) | 1 | * |
| 6910405 | 4 nömrəli tam orta məktəb | Psixoloq | 1 | |
| 6910755 | 7 nömrəli tam orta məktəb | Laborant (kimya, biologiya) | 1 | |
| 6910754 | 7 nömrəli tam orta məktəb | Laborant (fizika) | 1 | |
| 6910843 | 8 nömrəli tam orta məktəb | Kitabxanaçı | 1 | |
| 6910854 | 8 nömrəli tam orta məktəb | Laborant (fizika) | 1 | |
| 6910905 | 9 nömrəli tam orta məktəb | Psixoloq | 1 | |
| 6911154 | 11 nömrəli tam orta məktəb | Laborant (fizika) | 1 | |
| 6911453 | 14 nömrəli tam orta məktəb | Laborant (biologiya) | 1 | |
| 6911752 | 17 nömrəli tam orta məktəb | Laborant (kimya) | 1 | |
| 6911706 | 17 nömrəli tam orta məktəb | Uşaq birliyi təşkilatının rəhbəri | 1 | |
| | **Cəmi:** | **14 yer** | | |
| | **Şərur rayonu üzrə:** | | | |
| 6900449 | Fizika-Riyaziyyat Təmayüllü Lisey | Tərbiyəçi | 5 | ** |
| 6920253 | Şərur şəhər 2 nömrəli tam orta məktəb | Laborant (biologiya) | 1 | |
| 6920243 | Şərur şəhər 2 nömrəli tam orta məktəb | Kitabxanaçı | 1 | |
| 6920856 | Axaməd kənd tam orta məktəbi | Laborant (kimya, biologiya, fizika) | 1 | |
| 6920805 | Axaməd kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6920927 | Axura kənd tam orta məktəbi | Kitabxana müdiri | 1 | |
| 6920605 | Aşağı Daşarx kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6920727 | Aşağı Yaycı kənd tam orta məktəbi | Kitabxana müdiri | 1 | |
| 6921856 | Diyadin kənd tam orta məktəbi | Laborant (kimya, biologiya, fizika) | 1 | |
| 6922056 | Düdəngə kənd tam orta məktəbi | Kitabxana müdiri | 1 | |
| 6925005 | Xələc kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6923756 | Qaraburc kənd tam orta məktəbi | Laborant (kimya, biologiya, fizika) | 1 | |
| 6923705 | Qaraburc kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6923106 | Mahmudkənd kənd tam orta məktəbi | Uşaq birliyi təşkilatının rəhbəri | 1 | |
| 6923305 | Muğancıq-Mehrab kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6924205 | Siyaqut kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6924556 | Tənənəm kənd tam orta məktəbi | Laborant (kimya,biologiya, fizika) | 1 | |
| 6924805 | Vərməziyar kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6925455 | Yuxarı Daşarx kənd tam orta məktəbi | Laborant (kimya,biologiya) | 1 | |
| | **Cəmi:** | **23 yer** | | |
| | **Babək rayonu üzrə:** | | | |
| 6930153 | Babək şəhər 1 nömrəli tam orta məktəb | Laborant (biologiya) | 1 | |
| 6930254 | Babək şəhər 2 nömrəli tam orta məktəb | Laborant (fizika) | 1 | |
| 6930205 | Babək şəhər 2 nömrəli tam orta məktəb | Psixoloq | 1 | |
| 6932254 | Nehrəm qəsəbə 2 nömrəli tam orta məktəb | Laborant (fizika) | 1 | |
| 6930806 | Didivar kənd tam orta məktəbi | Uşaq birliyi təşkilatının rəhbəri | 1 | |
| 6930906 | Gərməçataq kənd tam orta məktəbi | Uşaq birliyi təşkilatının rəhbəri | 1 | |
| 6931005 | Göynük kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6931352 | Hacıvar kənd tam orta məktəbi | Laborant (kimya) | 1 | |
| 6931405 | Kərimbəyli kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6931806 | Naxışnərgiz kənd tam orta məktəbi | Uşaq birliyi təşkilatının rəhbəri | 1 | |
| 6931905 | Nəcəfalı Dizə kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6932753 | Sirab kənd tam orta məktəbi | Laborant (biologiya) | 1 | |
| 6932855 | Şəkərabad kənd tam orta məktəbi | Laborant (kimya, biologiya) | 1 | |
| 6932827 | Şəkərabad kənd tam orta məktəbi | Kitabxana müdiri | 1 | |
| 6933052 | Uzunoba kənd tam orta məktəbi | Laborant (kimya) | 1 | |
| 6933543 | Yuxarı Buzqov kənd tam orta məktəbi | Kitabxanaçı | 1 | |
| | **Cəmi:** | **16 yer** | | |
| | **Ordubad rayonu üzrə:** | | | |
| 6940127 | Ordubad şəhər 1 nömrəli tam orta məktəb | Kitabxana müdiri | 1 | |
| 6940405 | Aşağı Əylis kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6940627 | Azadkənd kənd tam orta məktəbi | Kitabxana müdiri | 1 | |
| 6940654 | Azadkənd kənd tam orta məktəbi | Laborant (fizika) | 1 | |
| 6940954 | Biləv kənd tam orta məktəbi | Laborant (fizika) | 1 | |
| 6941005 | Bist kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6941105 | Çənnəb kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6941154 | Çənnəb kənd tam orta məktəbi | Laborant (fizika) | 1 | |
| 6941605 | Düylün kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6942005 | Gilançay kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6943427 | Xanağa kənd tam orta məktəbi | Kitabxana müdiri | 1 | |
| 6942105 | Kələki kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6942127 | Kələki kənd tam orta məktəbi | Kitabxana müdiri | 1 | |
| 6942405 | Nürgüt kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6942505 | Nüsnüs kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6942905 | Tivi kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6943256 | Vələver kənd tam orta məktəbi | Laborant (kimya) | 1 | |
| 6943605 | Yuxarı Əylis kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| | **Cəmi:** | **18 yer** | | |
| | **Culfa rayonu üzrə:** | | | |
| 6950756 | Dizə kənd tam orta məktəbi | Laborant (kimya, biologiya, fizika) | 1 | |
| 6950805 | Əbrəqunus kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6950927 | Əlincə kənd tam orta məktəbi | Kitabxana müdiri | 1 | |
| 6951243 | Gal kənd tam orta məktəbi | Kitabxanaçı | 1 | |
| 6952456 | Xoşkeşin kənd tam orta məktəbi | Laborant (kimya, biologiya, fizika) | 1 | |
| 6952206 | Teyvaz kənd tam orta məktəbi | Uşaq birliyi təşkilatının rəhbəri | 1 | |
| | **Cəmi:** | **6 yer** | | |
| | **Kəngərli rayonu üzrə:** | | | |
| 6970106 | Qıvraq qəsəbə tam orta məktəbi | Uşaq birliyi təşkilatının rəhbəri | 1 | |
| 6970327 | Çalxanqala kənd tam orta məktəbi | Kitabxana müdiri | 1 | |
| 6970405 | Qabıllı kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6970656 | Qarabağlar kənd 2 nömrəli tam orta məktəb | Laborant (kimya, biologiya, fizika) | 1 | |
| | **Cəmi:** | **4 yer** | | |
| | **Şahbuz rayonu üzrə:** | | | |
| 6960106 | Şahbuz şəhər 1 nömrəli tam orta məktəb | Uşaq birliyi təşkilatının rəhbəri | 1 | |
| 6960406 | Ağbulaq kənd tam orta məktəbi | Uşaq birliyi təşkilatının rəhbəri | 1 | |
| 6960427 | Ağbulaq kənd tam orta məktəbi | Kitabxana müdiri | 1 | |
| 6960405 | Ağbulaq kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6961006 | Gömür kənd tam orta məktəbi | Uşaq birliyi təşkilatının rəhbəri | 1 | |
| 6961053 | Gömür kənd tam orta məktəbi | Laborant (biologiya) | 1 | |
| 6961105 | Güney Qışlaq kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6961452 | Kükü kənd tam orta məktəbi | Laborant (kimya) | 1 | |
| 6961854 | Qızıl Qışlaq kənd tam orta məktəbi | Laborant (fizika) | 1 | |
| 6961706 | Nursu kənd tam orta məktəbi | Uşaq birliyi təşkilatının rəhbəri | 1 | |
| 6962152 | Şahbuzkənd kənd tam orta məktəbi | Laborant (kimya) | 1 | |
| 6962205 | Türkeş kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6962305 | Yuxarı Qışlaq kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| | **Cəmi:** | **13 yer** | | |
| | **Sədərək rayonu üzrə:** | | | |
| 6980127 | Heydərabad qəsəbə tam orta məktəbi | Kitabxana müdiri | 1 | |
| 6980205 | Qaraağac kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6980206 | Qaraağac kənd tam orta məktəbi | Uşaq birliyi təşkilatının rəhbəri | 1 | |
| 6980405 | Sədərək kənd 2 nömrəli tam orta məktəb | Psixoloq | 1 | |
| | **Cəmi:** | **4 yer** | | |
| | **YEKUN:** | **98 yer** | | |

(*) Naxçıvan şəhər 3 nömrəli tam orta məktəbdə işə qəbul olunmaq üçün yalnız rus dilini mükəmməl bilən şəxslər müraciət edə bilərlər.

(**) Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyə tərbiyəçi vəzifəsinin tutulması üçün yalnız kişi cinsli namizədlər müraciət edə bilərlər.

## Şərur rayonunda səyyar aptekin təqdimatı keçirilib



Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mütəxəssisləri Şərur Rayon İcra Hakimiyyətinin əməkdaşları ilə birlikdə rayonun Dərvişlər kəndində bitkiçilik və heyvandarlıqla məşğul olan təsərrüfat sahiblərinin iştirakı ilə "Bitkiçilik və heyvandarlıq sahələri üzrə səyyar aptekin yaradılmasının əhəmiyyəti" mövzusunda növbəti maarifləndirici tədbir keçirilib.

Şərur Rayon İcra Hakimiyyətinin nümayəndəsi Mirkərim Seyidov bu kimi tədbirlərin əhəmiyyətindən danışıb.

Tədbirdə nazirliyin əməkdaşları Əyyub Abdullayev, Fəxrəddin Əliyev, Niyamət İsayev çıxış edərək vurğulayıblar ki, səyyar baytarlıq aptekinin yaradılmasında əsas məqsəd mülkiyyətçilərin vaxtına qənaət olunması və dərmanların yerlərdə onlara çatdırılmasıdır. Kəndlərdə, yaylaqlarda, fermalarda dərmanların satılması zamanı mütəxəssislərlə mülkiyyətçilərin birbaşa təması yaranır ki, bu da, öz növbəsində, dərman preparatlarının mütəxəssis tövsiyəsi ilə istifadəsinə imkan verəcək.

Həmçinin mütəxəssislər tərəfindən dərman preparatlarından istifadə qaydaları haqqında iştirakçılara ətraflı məlumat verilib.

Mütəxəssislər sahibkarları maraqlandıran sualları ətraflı cavablandırıb, onlara yaddaş kitabçaları paylayıb və mülkiyyətçilərə dərman preparatlarının satışı həyata keçirilib.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

### *İtmişdir*

Naxçıvan şəhəri, H.Aslanov küçəsi 2 ünvanda yaşayan Məmmədova Səkinə Novruz qızının adına olan 3237 inventar nömrəli texniki pasport və MH-005641 nömrəli daşınmaz əmlakın dövlət reyestrindən çıxarışı itdiyindən etibarsız sayılır.

***

Həsənəliyev Məftun Vilayət oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Həsənəliyev Vilayət Mahmud oğlunun adına olan avtomobilin texniki pasportu və sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Məcid Əkbərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 763